# "O bizim əl çatmaz bir dünyamız idi..."

## Şəhid anası Südabə xanım: "Xəqani bizə 3 yadigar qoydu getdi..."



*...Birinci Qarabağ Savaşında olduğu kimi, İkinci Vətən Müharibəsində də Respublikamızın bütün bölgələrindən fədakar və vətənpərvər el oğulları Ana Vətənimizin və işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda qorxu nədi bilmədən özlərini odun-alovun içinə atıblar... Birlikdə güclüyük prinsipini əsas götürərək, Vətənimizə xaincəsinə soxulan erməni qəsbkarlarına tarixi dərs veriblər, onlara yerini tanıdıblar və bir daha Azərbaycanda yaşayan bütün millətlərin Vətənimizin bütövlüyü uğrunda öz şücaətlərini nümayiş etdirərək, hətta canlarını qurban veriblər...*

*Bir daha Odlar yurdunun şanlı tarixində yeni-yeni səhifələr açıblar... Bu səhifələrin hərəsində bir ömrün hünərləri, tarixçəsi, canlı həyat salnamələri həkk olunub...*

*...Həmin şanlı tarixin yazılmasında Zaqatala rayonunun Qımır-Bazar kəndlərindən o, hər an mürəkkəb hərb sahəsində püxtələşən o igidlərin böyük rolu olub. Qeyd edək ki, bu kəndləri Azərbaycanda hərbiçilər kəndi kimi tanıyırlar.*

...Çünki tarixən bu kənddə dünyaya gələn gənclərin əksəriyyəti orta, ali hərbi məktəbləri bitirərək, könüllü olaraq hərb yolunu və yaxud müddətdən əlavə hərbi xidmətlərini davam etdirərək, hərb sahəsinin Azərbaycan Silahlı Qüvvələrinin inkişafına zəhmətlərinin əsirgəməyiblər... Onların fəaliyyətlərindən isə qalaq-qalaq əsərlər yazmağa olar... Demək olar ki, Qımır və Bazar kəndlərində yaşayan hər bir ailədən 1-2 nəfər hərbiçi var, həm də hərbiçi nəsilləri çoxdur...

...Bu günlərdə İkinci Vətən Savaşında şəhid olan ölməz hərbiçilərdən yazmaq üçün yolumu Qımır kəndindən saldım. Zaqatala rayon İcra Hakimiyyətinin Qımır kənd icra nümayəndəsinin əməkdaşı Ramin Həsənovdan aldığım məlumata görə,bu müharibədə həmin kənddən 120 –dən çox könüllü çavuş, gizir və yüksək rütbəli zabitlər iştirak ediblər. Həmin Vətən cəfakeşləri təcrübəli zabitlər döyüşlərdən qazanılan qələbələrdə böyük şücaətləri olub. Ramin Həsənov bildirdi ki, 27.09.2020 –ci il tarixdə erməni təxribatı nəticəsində Vətən Müharibəsində Qımır kəndindən 3 nəfər hərbi qulluqçu – Murtuzəliyev Xəqani İsa oğlu, Nuhiyev Musa Nüsrət oğlu, İsrafilov Abdurəhman İsrafil oğlu Azərbaycanımızın azadlığı uğrunda qəhrəmancasına həlak olublar... Onlarla hərbiçi isə yaralanıblar. Birinci Qarabağ Savaşında isə Qımır və Bazar kəndlərindən 5 nəfər gənc şəhid olub... Bu, Vətən Savaşı zamanı Qımırlılar Ramil Həsənov kimi gənclərin təşəbbüsü ilə müharibə dövründə tez-tez cəbhə bölgələrinə yardımlar aparılmış, müharibədə döyüşən hərbiçilərlə sıx əlaqədə olublar. Onların problemlərinin həll olunmasına çalışıblar. İndi də Qazi və Şəhid ailələri ilə sıx əlaqəli işləyirlər.

Qımır kəndinin mərkəzində həmin kəndin sabiq icra nümayəndəsi Həsrət müəllimin təşəbbüsü, təşkilatçılığı, şəxsi vəsaiti sayəsində şəhidlərin xatirəsinə kompleks inşa edilib və qəbristanlıqda isə Şəhidlər Xiyabanı yaradılıb. Qımır kənd icra nümayəndəsinin əməkdaşı Ramin Həsənov söhbət zamanı qeyd etdi ki, onların təşəbbüsü ilə şəhid ailələri ilə birgə Qımır-Bazar kəndlərinin hər iki girəcəklərində hər üç şəhidin iri təqdimat portretləri quraşdırılıb. Yaxın vaxtlarda kəndin mərkəzində şəhidlərin xatirəsinə bulaq kompleksi də inşa olunacaq...

...Vətən uğrunda canlarını fəda verən hər üç şəhidin ömrü yarımçıq qalsa da hərb sahəsində döyüşüb, ömür yollarında qəhrəmanlıq dastanları yaradıblar...

Gəlin, bizim xilaskarlarımızla tanış olaq: hərb yolunda zirvələri fəth edən, Zaqatalamızın fəxri, baş çavuş, (MAXE) bölük komandiri Murtuzəliyev Xəqani İsa oğlu.

...Mən onun hərb, döyüş yolundan yazmaq istəyənmdə Boris Polevoyun "Əsil insan haqqında povest" əsərinin qəhrəmanı yadıma düşdü... Oxşar taleli, eyni xasiyyətli, cəfaqkeş, qayğıkeş, sadə və eyni zamanda seçdiyi hərb qulluğunun təcrübəli, əvəz olunmaz kadrı... Onun haqqında ətraflı məlumatlar toplamaqdan ötrü Qımır kəndində xüsusi hörmətə malik Murtuzəliyevlər ailəsində olanda bir daha Ana qəlbinin sızıltılarını, fəryadını, övlad itkisinin necə ağrılı, acılı olduğunun, Vətən üçün namuslu, qeyrətli, qorxu, çəkinmək nədi bilməyən, düşmənin göz dağı olmuş Xəqani kimi təcrübəli hərbiçi yetişdirmiş Atanın, o qəm dünyasında özünü necə sındırmadığının şahidi idim.



***Şəhid anası Südabə xanım: 'Xəqani mənim əl çatmaz dünyam idi...'***

***Şəhid atası İsa kişi: 'Oğlum Xəqani bütün elin fədaisi, ürəyi, canı idi. Onun itkisi ilə barışa bilmirəm, özümü dəryada batmış gəmideki kimi hiss edirəm. Əlimlə isə elə bil Xəqanini xilas etməyə çalışıram. Lakin bu münmkünsüzdür, niyə görəsən yaxşıları bu dünyadan tez aparırlar?'***

Zaqatalanın dağ vüqarlı, şəhid oğlu Xəqani İsa oğlu Murtuzəliyevin uşaqlıqdan arzusu polis orqanlarında işləmək olub. Onda bu çətin sahəyə marağı rəhmətlik əmisi, uzun müddət polis orqanlarında çalışmış Musa Murtuzəliyev yaradıb. Ona görə də Xəqani fiziki hazırlığını gücləndirmək üçün daima idmanla məşğul olub. Qəhrəman, fədakar hərbiçilərin dünyaya göz açdıqları Qımır kəndində olan zaman Murtuzəliyevlər ailəsində oldum. Müəyyən səbəblərdən polisdə işləmək arzusu reallaşmayan, lakin hərb sahəsində yüksək təcrübə toplamış Xəqani barəsində ətraflı məlumat topladım. Qeyd edim ki, Qımır kəndi bağlı-bağatlı, güllü-çiçəkli olmaqla yanaşı zəhmətsevər insanları olan kənddir. Xəqani hərbidə qulluğa başlayan vaxtdan onun haqqında ancaq xoş sözlər, müsbət fikirlər söyləyiblər: "Xəqani Azərbaycanın, Vətəninin etibarlı müdafiəçisi, həqiqi və dönməz hərbiçisi olub... Əhsən, onun hərbidəki nailiyyətlərinə..."

...Xəqaninin vaxtilə doğulub, böyüdüyü, boya-başa çatdığı həyətə daxil olanda isə, elə bil ki, başqa aləmə düşmüşdüm... Hər tərəfi müxtəlif meyvə ağacları, səliqə-səhman, qızıl güllərlə dolu gül kolları, sanki hər tərəfə yaşıl xalı sərilmişdi. Amma bu geniş həyətdə sakitlik hökm sürürdü...

Əlavə edim ki, şəhidin ailəsinin yaşadığı ünvanına qədər bələdçilik edən tələbə, yaxın qohumu Telli xanım da Vətən xilaskarı haqqında belə dedi: "Xəqani dayı bizim üç rəngli bayrağımızı daha ucalara sancaraq, şəhadət zirvəsini fəth etdi, ölməz qəhrəman obrazını yaratdı..."

Məni qarşılayan qara libaslı şəhid anası Südabə xanımı xəyallar uzaqlara aparmış, həsrətlə kimisə gözləyirdi, fındıq ağaclarının altında əyləşən böyük nəvəsi sakitcə, dinməzcə ətrafı seyr edirdi... Südabə xanım: "Balamın böyük balasıdır, atası müharibədə həlak olandan sonra özünə gələ bilmir, atasının ölümü ilə barışa bilmir, inanmır. O, mənim böyük nəvəm İsadır, babasının adını qoymuşuq. Nəvəmi heç cürə sakitləşdirə bilmirik. Hələ iki nəvəm də Bakıdadır... Onların suallarına cavab verə bilmirik, mən də, babaları da çox çarəsiz vəziyyətdəyik... Çünki, Xəqani təkcə bu ailənin, Qımır kəndinin yox, bütün Azərbaycanı tərk etdi... Oğlum bir əl çatmaz zirvə idi..." dedi və göz yaşları sanki yaz yağışını xatırlatdı. "O, fərqli səhifə-səhifə tarixi yazdı və bizi tərk etdi..." deyə söhbətə davam etdi.Bu məqamda hal-hazırdacəbhə bölgəsində hərbi xidmətini davam etdirən, baş çavuş Rauf Ramazanov Xəqani barəsində söylədikləri yadına düşdü: "Xəqani elə bir hərbiçi idi ki, elə bir cəngavər olub ki, onun heç qarşısında namərd düşmən dayanmaz, tab gətirməzdi. Onların gözünün odunu alırdı, əli qanlı düşmənə qan uddurardı. Bu yolu seçəndə çox düşünülmüş, addım atılmış, hərb yolunda ölümü də gözünün önünə gətirmişdi – Xəqani... Çünki, o, Zaqatala rayonunun ən nümunəvi, seçilən və əməksevər Vətənə bağlı bir ailədə tərbiyə almışdı, Südabə anadan və İsa atadan..."

...Söz yox ki, Azərbayan Silahlı Qüvvələrində müddətdən əlavə (MAXE) 10 ilə yaxın hərbi qulluqçu kimi xidmət etmiş Xəqani İsa oğluMurtəliyevin ömür yolunubir yazıda sığışdıra bilmərik...

Ancaq, bu xidmət dövrünün əsas hissəsini ön cəbhə xəttində düşmənlə qarşı – qarşıya keçirmiş baş çavuş Xəqani Murtuzəliyev dünəndə həlak ola bilərdi, yəni, İkinci Vətən Müharibəsindən əvvəl dəfələrlə erməni təxribatlarının qarşısını alanda 2016 –cı ildə aprel döyüşlərində də... Taleyin qisməti belə imiş... Atası İsa kişi deməkən "...Bu necə oldu ki, azğın düşmən Xəqani balamı nişan ala bildi, necə ola bilər ki, balam bu məqamları qaçırtdı...? Düşmənə imkan verdilər ki, oğlumu nişan alsınlar, axı o, elə-belə hərbiçi – döyüşçü deyildi, zabit olmasa da, ali təhsil almasa da işğal altında olan torpaqlarımızda (Vətən Müharibəsindən əvvəli nəzərdə tutulur. E.M.) üzbə-üz mövqelərin hər qarışına, düşmənlərin hər cür hiyləsinə bələd idi – Xəqani... Oğlum hərbidə bütün sınaqlardan keçmişdi, dəfələrlə hərbi sınaq təlimlərindən uğurla keçmişdi, bütün çətin-mürəkkəb anları yaşamış, heç vaxt əyilməmiş və sınmamışdır. Düşmənə də meydan oxumuşdu... Niyə belə oldu. Oğul dərdinə, oğul itkisinə, vaxtsız ölümünə kim dözər? Ondan yadigar qalan 3 nəvənin çox saylı suallarına biz necə cavab verək?!... Bir təsəllimiz var: "oğlum Xəqani – bu Vətən Savaşında düşmənə qarşı mərdliklə döyüşdü, onların çox saylı canlı qüvvəsini (onunla müharibə başlayan saatlardan çiyin-çiyinə döyüşüb, yaralanan hərbiçi yoldaşları belə söyləyirlər-şəhid atası əlavə edir. E.M.) darmadağın edib... Və əsil kişi tək həlak olur, üç rəngli bayrağımıza qurumaz qanı ilə əbədiləşdirir... Amma bizi gözü yaşlı qoyur, uzaq səfər yolunu seçir – cənnət qapısını açmaq üçün..." Çox çətinliklə siqareti bir-birinə calaya – calaya ağır hisslər, ağır duyğularını çatdırır. O, qürurlu şəhid atası İsa Ramazan oğlu Murtuzəliyev...

***...Hələ yeniyetmə yaşlarından enişli – yoxuşlu, bu mürəkkəb hərb yoluna qədəm basandan Xəqaniyə demişdim ki, 'ay balam, yaxşı-yaxşı fikirləş, götür-qoy et, düzdü, hərb yolunu seçirsən, uğurlu olsun, amma unutma ki, Vətənimizin üzərindən qara buludlar çəkilməyib, o sərt küləklər əsməkdədir... özünü qoru balam...'– deyə İsa kişi qəmgin şəkildə əlavə etdi...***

**(davamı gələn sayımızda)**

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**